

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 1 iyun 2024-cü il №40 (2851) https://mod.gov.az Qiymət 30 qəpik

*Reportaj*

## "Vətən ucalığının müdafiəçiləriyik!"



***Səhərə az qalıb, dan yeri sökülür. Dolanbac yollarla, sərt aşırımlarla irəliləyərək hərbi qulluqçularla görüşə tələsirik. Bir az əvvəl uzaqdan görünən dağlar artıq əlçatan səviyyədədir. Təbiətin gözəlliyi yol yoldaşım olan hər kəsə könül xoşluğu bəxş edir. Bu füsunkar mənzərə bizə yolun uzaqlığını hiss etdirmir. Yüngül əsən meh ana əli kimi saçlarımızı sığallayır. Təsadüfi deyil ki, Ana Vətən anlayışını Vətən ucalığında daha dərindən dərk etməyə başlayır, bu hissin özü qəlbə sərinlik gətirir.***

Bu düşüncələrin ağuşunda əsgərlərimizin yanına çatdıq. "N" hərbi hissəsində şəxsi heyət çiynində silah Vətəni qorumaq missiyasını ləyaqətlə yerinə yetirmək üçün döyüş növbəsinin təhvil-təsliminə hazırlaşır. Dağların sinəsində qazılan səngərlər alınmaz qalanı xatırladır. Vaxtından-vədəsindən, relyefindən və iqlimindən asılı olmayaraq hərbi qulluqçularımız bu qalanı 24 saat müdafiə edir, Ana Vətənə övladlıq borcunu qürurla və ləyaqətlə yerinə yetirirlər. Qəhrəman oğullarımız bu yerləri göz bəbəyi kimi qoruyan sələflərini özlərinə örnək bilir və bu minvalla üzərlərinə düşən məsuliyyətin öhdəsindən layiqincə gəlirlər.

- Şəxsi heyət hərbi intizama, yüksək döyüş hazırlığına malik olan vətənpərvər gənclərdən ibarətdir, - deyən leytenant Xəqani Arzumanov söhbətə başlayır. "Bu torpaqda doğulan, böyüyüb boya-başa çatan hər kəsin müqəddəs borcu Vətənimizin ərazi bütövlüyünü qorumaq, onun varlığını təmin etmək üçün yeri gəlsə canından keçməyi gözə almaqdır. Məmləkətimizin igid oğulları Vətən uğrunda canlarını veriblər, onların canı hesabına bütövləşən bu torpaqları qorumaq hər birimizin ən ümdə vəzifəsidir. Vətəni müdafiə etmək xalqı qorumaqdır, dövləti qorumaqdır və bunlarla bağlı olan hər şeyi - dili, bayrağı, milli-mənəvi dəyərləri qorumaqdır. Ata-babalarımızın bizlərə miras qoyduğu bu misilsiz əmanəti qoruyub saxlamaq, gələcəyimizin memarı olan gənclərimizə bütöv şəkildə ötürmək növbəsi bu gün bizdədir. Bunun üçün də, başda Ali Baş Komandanımız olmaqla, komandirlərimizin bizlərə olan etimadını layiqincə doğrultmaq üçün üzərimizə düşən vəzifəni ləyaqətlə yerinə yetiririk", - zabit Xəqani Arzumanov fikrini tamamlayır.

Komandirlə birlikdə döyüş növbətçiliyinə gedən şəxsi heyətin bir cərgə düzüldüyünü və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Qürbət Babayevin rəhbərliyi altında təlimatın keçirildiyini görürəm. Əsgərlərlə salamlaşıb tanış oluram. "Ölkə hüdudlarının başladığı və bitdiyi yerdə xidmət edən hər bir kəs torpaqlarımızın toxunulmazlığının, bütövlüyünün nə qədər böyük önəm daşıdığını anladığından bu məsuliyyətin ağırlığını və müqəddəsliyini dərk edərək xidmətini təşkil edir. Döyüş növbətçiliyi nizamnamələrin tələbləri çərçivəsində aparılır. Şəxsi heyət ona verilən tapşırıqların öhdəsindən layiqincə gəlir. Bölməmizdəki hərbi qulluqçuların həm xidməti, həm də gündəlik fəaliyyətinin yüksək səviyyədə təşkili üçün arzuolunan şərait yaradılıb, təminat və təchizat vasitələrimiz lazımi səviyyədədir. Növbənin gecə və gündüz vaxtlarında təşkili üçün müasir müşahidə vasitələri, həmçinin gecəgörmə cihazlarından istifadə olunur. Minlərlə metr hündürlükdəki torpaqlarımızı müdafiə etmək ən ali vəzifədir və şəxsi heyət bunun fərqindədir. Əsgərlərimizin təcrübəli hərbi qulluqçu kimi yetişdirilməsində komandirlərimizin rolu böyükdür. Biz də əlimizdən gəldiyi qədər onlara bu işdə yardımçı olur, öz bilik və bacarıqlarımızı gənc əsgərlərimizlə bölüşürük", - kiçik çavuş Q.Babayev deyir.

(Ardı 3-cü səhifədə)



"Sevən qəlbin fəryadı"

4-cü səhifədə



Bayram da peşəkar zabitlərdən olacaq

4-cü səhifədə



Müstəqillik günü hərbi hissələrdə qeyd olundu

5-ci səhifədə



Təkmilləşdirmə kursunun növbəti buraxılışı oldu

7-ci səhifədə

# Azərbaycan Respublikası Müdafiə Nazirliyi rəhbərliyinin Türkiyəyə işgüzar səfəri



*Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerin dəvəti ilə Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasına işgüzar səfər edib. Səfər çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş ölkənin milli müdafiə naziri cənab Yaşar Gülerlə, Azərbaycan Respublikasının müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bu ölkənin Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.*

Görüşlərdə ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi təhsil sahəsində əməkdaşlığın inkişaf perspektivləri, cari vəziyyəti müzakirə edilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair geniş fikir mübadiləsi aparılıb, həmçinin qarşılıqlı təcrübə mübadiləsi məqsədilə birgə təlimlərin intensivliyinin artırılmasının vacibliyi vurğulanıb.

Səfər çərçivəsində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, eləcə də Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti və nümayəndələri İzmir şəhərində yerləşən "Doğanbey" təlim sahəsinə gələrək Türkiyə Respublikası Müdafiə Sənayesi Komitəsinin sərgisi ilə tanış olublar. Qonaqlara sərgidə nümayiş etdirilən aviasiya vasitələri, pilotsuz uçuş aparatları, silah və döyüş texnikası ilə bağlı ətraflı məlumat verilib. Həmçinin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin rəhbər heyəti mayın 30-da İzmir şəhərində "EFES-2024" çoxmillətli təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak edib. "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan və milli müdafiə naziri cənab Yaşar Güler çıxış ediblər. Nümayəndələr Türkiyə Respublikası Müdafiə Sənayesi Komitəsinin













sərgisi ilə tanış olduqdan sonra "Türk Ulduzları"nın nümunəvi uçuşlarını və paraşüt atlayışlarını izləyiblər. Sonra 49 ölkədən ümumilikdə 1567 nəfərdən ibarət şəxsi heyətin iştirak etdiyi "EFES-2024" çoxmillətli təlimində mükafatlandırma mərasimi keçirilib.

Sonda təntənəli konsert proqramı təqdim edilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidmətinin materialları əsasında**



## Türkiyə Prezidenti Azərbaycan ilə Ermənistan arasında sülh imkanlarından istifadə etməyə çağırıb

Azərbaycanın tarixi torpaqlarının çoxillik erməni işğalından azad edilməsindən sonra Cənubi Qafqazda uzunmüddətli sülhün təmin olunması üçün tarixi şərait yaranıb. Azərbaycan ilə Ermənistan arasında sülhə nail olunması üzrə imkanlar pəncərəsi bağlanılmamalıdır.

AZƏRTAC xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İzmir vilayətinin Doğanbey rayonunda keçirilən "EFES-2024" beynəlxalq hərbi təlimlərinin "Müşahidəçi günü"ndə çıxış edərkən bildirib.

Türkiyə Prezidentinin sözlərinə görə, Ankara həm regionda, həm də beynəlxalq arenada sülhün və sabitliyin bərqərar edilməsinə çalışır. O əlavə edib: "Sülh istəyirsənsə, müharibəyə hazır olmalısan. Ölkəmiz, həmçinin dost və qardaş ölkələrə əlindən gələn köməyi göstərməyə hazırdır. Biz Türkiyənin olduğu kimi, dost dövlətlərin də təhlükəsizliyinə əhəmiyyət veririk". Rəcəb Tayyib Ərdoğan onu da bildirib ki, Ankaranın qonşu dövlətlərə heç bir iddiası yoxdur.

Türkiyə Prezidenti beynəlxalq əməkdaşlığın ölkələrin maraqları və təhlükəsizliyi baxımından, o cümlədən müdafiə sektorunda əhəmiyyətinə diqqət çəkib.

Ərdoğan qeyd edib ki, hazırkı "EFES-2024" beynəlxalq təlimləri zamanı Türkiyədə ilk dəfə olaraq müdafiə sənayesinin 33 müxtəlif istiqamətindən istifadə edilib. "Məqsədimiz qarşılıqlı faydalı əməkdaşlıqdır. Türkiyə müdafiə sənayesi sahəsində təcrübəsini dost ölkələrlə bölüşməyə hazırdır", - deyə Prezident bildirib.

Türkiyənin dövlət başçısı bildirib ki, 2023-cü ilin sonuna qədər onun ölkəsinin müdafiə sənayesində ixracatın həcmi 5,5 milyard dollara çatıb. "Ötən il Türkiyənin müdafiə şirkətlərindən 185 ölkəyə 230 adda məhsul tədarük edilib. Ümumi dəyəri 10 milyard 250 milyon dollar olan müdafiə təyinatlı məhsulların tədarükü üçün yeni müqavilələr imzalanıb", - deyə siyasətçi bildirib.

Prezident Ərdoğan qeyd edib ki, bu gün "EFES-2024" təlimləri çərçivəsində təşkil edilən sərgidə Türkiyə istehsalçılarının bəzi yeni məhsulları nümayiş etdirilir.

Türkiyə lideri diqqəti ölkəsinin təhlükəsizlik problemlərinə çəkib və Ankaranın cənub sərhədlərində terrorçuların nəzarətində olan zonanın formalaşmasına imkan verilməyəcəyini vurğulayıb.

## ANAMA: Azad edilmiş ərazilərdə 10 min kvadratkilometrdən çox sahə mina və partlamamış hərbi sursatlarla çirklənib

İşğaldan azad edilmiş ərazilərdə 10 min kvadratkilometrdən çox sahə mina və partlamamış hərbi sursatlarla müxtəlif səviyyələrdə çirklənmiş hesab olunur.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Zəngilan şəhərində ANAMA və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının (BMT İP) birgə təşkilatçılığı ilə keçirilən ənənəvi beynəlxalq humanitar minatəmizləmə konfransında deyib.

Vüqar Süleymanov ölkəmizin üzləşdiyi mina probleminin təsirinin aradan qaldırılmasına beynəlxalq dəstəyin artırılmasının zəruriliyini diqqətə çatdırıb. O, kənd təsərrüfatı, əkinçilik üçün münbit torpaqların, eyni zamanda, saysız-hesabsız heyvan və bitki növlərinin olduğu ərazilərin, çaylar, göllər, bulaqlar, kəhrizlər və su quyularının mina və müharibənin digər partlayıcı qalıqlarla ciddi şəkildə çirklənməsi, habelə minaların mənfi təsirinin aradan qaldırılması istiqamətində həyata keçirilən tədbirlər haqqında məlumat verib.

# Azərbaycanın müdafiə naziri türkiyəli nümayəndə heyəti ilə görüşüb



*Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Türkiyə Respublikası Silahlı Qüvvələrinin Kəşfiyyat Baş İdarəsinin rəisi general-polkovnik İsmail Günaydının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan müdafiə naziri onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Dövlət başçılarımızın səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyini xüsusi vurğulayıb.

Cari ilin 29-30 may tarixlərində Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülerin dəvəti ilə qardaş ölkəyə işgüzar səfərindən məmnunluq ifadə edən general-polkovnik Zakir Həsənov Türkiyədə keçirilən "EFES-2024" çoxmillətli təliminin təşkilatçılığını, eləcə də hərbi qulluqçuların peşəkarlığını yüksək qiymətləndirib.

General-polkovnik İ.Günaydın isə öz növbəsində göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əlaqələrin qarşılıqlı inam, etimad və dəstəyə əsaslandığını qeyd edib.

Görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası çərçivəsində həyata keçirilən tədbirlərin əhəmiyyəti qeyd edilib.







Sonra müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Türkiyə nümayəndə heyəti ilə görüşüb.

Azərbaycan Ordusunun Baş Qərargahında keçirilən görüşdə ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyətindən məmnunluq ifadə olunub. Hər iki qardaş ölkənin qarşılıqlı əməkdaşlığının genişləndirilməsi baxımından bu cür görüşlərin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# “Vətən ucalığının müdafiəçiləriyik!”



(Əvvəli 1-ci səhifədə)

Əsgər İdrak Ağayevdən xidmətin ona qazandırdığı keyfiyyətləri və bu keyfiyyətlərin bundan sonrakı həyatında ona nə hiss etdirəcəyini soruşuram. "Uşaq yaşlarından məktəbdəki dərsliklərdə Ana Vətən məfhumunu tez-tez oxuyurduq. Amma bu məfhumun necə dərin məna daşıdığını hərbi xidmətim müddətində öyrəndim, qəlbimə həkk etdim. Üzərində gəzdiyimiz bu yerlərin hər qarışı uğrunda verilən canlar, tökülən qanlar bizim vətənpərvərlik hissimizə mühüm təkan verən amildir. Xidmətim boyunca Ana Vətənimizin ucqar nöqtələrində üzərimə düşən övladlıq borcumu layiqincə ödəməyi bacarmışam. Bunda əsgər yoldaşlarımın, ələlxüsus da komandirlərimin əziyyətləri danılmazdır. Mənə dözümlü, cəsur döyüşçü olmağın incəliklərini məhz onlar öyrətdilər. Bundan sonra da Vətənimizin bütövlüyü, maraqlarının qorunub saxlanması üçün səylə çalışacaq, dövlətimə, xalqıma layiqli vətəndaş olacağam", - deyə əsgər bildirir.

Döyüş növbətçiliyində olan əsgər Fərid Əliyev xalqın və Ali Baş Komandanın etimadını layiqincə doğrultmağın vacibliyini qeyd edərək söhbətə başlayır: "Xalqımızın firavanlığını təmin etmək, torpaqlarımızın bütövlüyünü qorumaq üçün ayıq-sayıq xidmət aparırıq. Təcrübəli komandirlərimizin rəhbərliyi altında döyüş vərdişlərimizi daim artırır, hərbi biliklərimizi dövrün tələblərinə uyğun təkmilləşdiririk. Mənə təhkim olunmuş silahın incəliklərini dərindən mənimsəmişəm. Artıq xeyli vaxtdır ki, bu postda xidmət edirəm. Bu yerlərin hər qarışı Vətənimizin hər guşəsi kimi, mənim üçün əzizdir. Döyüş ruhumuz yüksəkdir. Ərazi bütövlüyümüz 24 saat qorunur. Komandirlərimiz döyüş hazırlığımızla yanaşı, mənəvi-psixoloji vəziyyətimizi də nəzarətdə saxlayırlar. Qayğılarımız və problemlərimizlə maraqlanırlar. Asudə vaxtlarımızı da səmərəli keçiririk. Bölməmizdə ailə mühiti mövcuddur. Özümüzü doğma ailəmizdəki kimi hiss edirik. Hər kəs əmin olsun ki, torpaqlarımız göz bəbəyi kimi qorunur. Ən böyük arzumuz Vətənə xidmətimizi layiqincə başa vurub, doğmalarımızın yanına qürurla qayıtmaqdır".





Postda müşahidə aparan əsgər Zakir Məmmədov Vətən keşiyində durmağın şərəf məsələsi olduğunu qeyd edərək fikrini davam etdirir: "Vətən keşikçisi olaraq ərazi bütövlüyümüzü qorumaqla bərabər, həm də şanlı ordunun güclü əsgəri olaraq öz döyüş vərdişlərimizi artırırıq. Vətənimin gənc müdafiəçisi olaraq qürurluyam. Təcrübəli komandirlərim və cəsur yoldaşlarımla bir cərgədə durduğum üçün fəxarət hissi keçirirəm. Hər bir Vətən oğlunun ən gözəl və yaddaqalan çağları onun hərbi xidmət dövrüdür. Burada Vətənimizin müxtəlif diyarlarından olan dostlar qazanmışam. Onlarla şaxta-isti, gecə-gündüz demədən çiyin-çiyinə xidmət aparmışıq. Bu günlərin hər biri mənim ömür tariximə silinməz izlər salıb. Komandirlərimə sonsuz minnətdaram. Çünki onların sayəsində bir hərbçi kimi formalaşmışam. Gənc əsgər dövrümdə içdiyim Hərbi Anda hər zaman sadiqəm. Və üzərimə düşən vəzifəni nəyin bahasına olursa olsun, yerinə yetirməyə hazıram. Biz Vətən ucalığının müdafiəçiləriyik və bununla qürur duyuruq!".

Hərbi qulluqçularımızla tanışlıq mənə xoş təəssürat bağışladı... Onlarla birlikdə keçirdiyimiz bir neçə saatlıq zaman kəsiyi sona çatsa da, onların mənə bəxş etdiyi xoş duyğular könül xoşluğu yaratdı. İdrak, Fərid və Zakirin timsalında minlərlə oğullarımız bu gün Vətənə övladlıq borcunu ödəyir, onların hər biri fərqli insan olsalar da, amalları birdir - Vətəni müdafiə etmək, onun ərazi bütövlüyünü qorumaq. Bu müqəddəs vəzifə bu gün uğurla icra olunur. Və əsgərlərimiz var olduğu müddətcə bizim gələcəyə inamımız tam, qələbələrimiz daimi, uğurlarımız davamlı olacaqdır.

**Kapitan**
**Fuad CƏFƏROV**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

*Tarix yazan oğullar*

# “Sevən qəlbin fəryadı”



Vətənpərvərliyin ən ali məqamı şəhidlikdir. Şəhidlik zirvəsi hünər və qeyrət simvoludur. Şəhidlərimizin məzarı Vətənimizin azadlıq abidəsidir. Onlar ölümsüzlüyə qovuşaraq gələcək nəsillərin ilham mənbəyi oldular. Çünki Azərbaycan torpağı ərazi bütövlüyümüzün təminatçısı olan şəhidlərimizin qanı ilə yoğrulub. Qarabağın hər qarış torpağı onların əfsanəvi igidliyindən bəhs edən qəhrəmanlıq dastanlarının şahidi olub. Füsunkar gözəlliyə sahib olan bu torpaqların dağı, yaylası, meşəsi hər addımda şəhid ruhunun nəfəsini, qələbə nəğməsini pıçıldayır.

27 sentyabr 2020-ci il... Bu gün Azərbaycan tarixinin qəhrəmanlıq salnaməsində yeni bir səhifə açıldı. Bu səhifə Azərbaycan əsgərinin şücaəti, qəhrəmanlığı, qorxmazlığı ilə yazıldı. Ermənistanın növbəti hərbi təxribatının qarşısının alınması ilə başlayan əks-hücum əməliyyatları zamanı bütün cəbhə boyu ağır artilleriyadan istifadə etməklə hücuma keçən, təkcə mövqelərimizi deyil, eyni zamanda, birbaşa mülki əhalini də hədəfə alan düşmən acı məğlubiyyətin ilk gününü yaşadı. Azərbaycan Ordusu 44 günlük Vətən müharibəsinin hər günündə mövqe qələbələri qazana-qazana tarixi Azərbaycan torpaqlarına şəhər-şəhər, kənd-kənd bayraq sancdılar. Azərbaycan Ordusu bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Qarabağı və ətraf rayonları düşmən işğalından azad etdi. Haqq savaşımız əzmkar oğullarımızın möhkəm iradəsi sayəsində cəmi 44 gün ərzində qələbə ilə başa çatdı, tarixi ədalət bərqərar oldu...

Tarixi ədaləti bərqərar edən ordumuzun 44 günlük Vətən müharibəsi zamanı öz igidliyi və fədakarlığı ilə adını tariximizin qızıl səhifələrinə yazdırmış müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Fariz Şahin oğlu Həsənovdur.

Fariz Ağstafa rayonunun Dağ Kəsəmən kəndində dünyaya göz açıb. 2005-2006-cı illərdə müddətli həqiqi hərbi xidmətdə olub. 2008-ci ildən isə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi həyatını ordu sıralarına bağlayıb. Onun cəbhənin ön sıralarına qədər uzanan həyatı hər kəs üçün örnəkdir.

2020-ci il sentyabrın 27-də torpaqlarımızın azadlığı və ərazi bütövlüyümüzün bərpa olunması naminə başlanan haqq savaşımızın iştirakçısı olub. Oktyabrın 13-də çavuş Fariz Həsənov xidməti vəzifələrini yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb. Döyüşlərdə göstərdiyi şücaətə görə Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən ölümündən sonra "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib. Ailəli idi. Bir oğlu və bir qızı Vətənə yadigar qalıb.

Farizin həyat və döyüş yoluna işıq salmaq, yaxınlarının onunla bağlı xatirələrini dinləmək məqsədilə ailəsini ziyarət etdik. Şəhidin ömür-gün yoldaşı Əzizə Həsənova söhbətimizə qəmli notlarla başladı. "El arasında "kişilər ağlamaz" kimi bir ifadə formalaşıb. Bu fikir onlara körpəlikdən aşılanır. Dünyaya gələndə oğlan uşaqlarını adətən mavi rəngdə geyindirirlər. Mavi soyuq rəngdir.



Sanki bu rənglə kişiləri "buza" çevirmək üçün istifadə edilir. İllər sonra ağlamağı unudan milyonlarla kişi formalaşır. Fariz də o milyonlardan biriydi. Ağlamaz, hisslərini bildirməzdi. Hərdən elə düşünürdüm ki, mən onun göz yaşını əsla görə bilməyəcəm. Farizin ilk dəfə ağladığını görəndə heyrətimi gizlədə bilməmişdim. Həmin gün general-mayor Polad Həşimov şəhid olmuşdu. Heç nə danışmırdı, fikir bildirmirdi. Gözləri nəmli olsa da, yumruqlar düyünlü, alnı qırışmışdı. Kədərlə qarışıq qəzəb simasına çökmüşdü. Fariz ondan sonra hər gün şəhidlərimizin qisasını almaq üçün dua edirdi, şəhid olsa belə bu yoldan dönməyəcəyini bildirirdi. Və sonda bu istəyinə çatdı. Torpaqlarımızın azad olunmasında iştirak edərək şəhidlik zirvəsinə ucaldı. Tək təsəllim odur ki, Farizin qisası yerdə qalmadı, ərazi bütövlüyümüz bərpa olundu. Həmçinin dövlət rəhbərliyinin daim diqqət mərkəzindəyik. Deyirlər şəhidlər unudulanda ölürlər. Əgər onları unutmasaq yaşayacaqlar. Bu da bütün şəhid ailələrinin tək təsəllisidir".

Əzizə xanım ömür-gün yoldaşına həsr etdiyi roman haqqında danışmağı da unutmadı. "Farizlə xatirələrimin hər anı bir günümə bərabərdi. Acılı-şirinli xatirələrimizi unutmamaq, bir ömür yaşatmaq məqsədilə o gözəl günləri bir kitaba sığdırmaq qərarına gəldim. "Sevən qəlbin fəryadı" adlı sevgi romanı... Kitabın hər sətrini yazdıqca, sanki hər kəlmə bir ox, hər cümlə bir mərmiyə dönüb qəlbimi deşirdi. Yuxusuz gecələrimdə sanki Vətən keşikçisi olurdum. 11 aya yazdığım bu sevgi romanında sanki evli olduğumuz 8 ili yenidən yaşadım. Məqsədim Farizi sətirlərdə yaşatmaqla yanaşı, gələcək nəsillərə sevginin, ailə dəyərlərinin və vətənpərvərliyin vəhdət təşkil etdiyi bir sevgi romanını



çatdırmaq idi. "Sevən qəlbin fəryadı" adlı romanım çapdan çıxdıqdan sonra sanki mənəvi rahatlıq tapdım".

Əzizə Həsənova, həmçinin əlavə etdi ki, Fariz həm həyat yoldaşı, həm də övladlarına ata kimi çox həssas insan olub: "O, Vətənini canından, ailəsindən üstün tutan bir insan idi. Müharibə başlamamışdan öncə deyirdi ki, kaş torpaqlarımız azad olunaydı və mən də Qarabağdakı döyüşlərdə iştirak edərdim. Arzusu reallaşdı, Vətən uğrunda canını qurban verdi. Sağ olsaydı, şəhidləri anacaq, hər kəlməsində deyəcəkdi: "Vətən sağ olsun!". İndi isə onun yerinə mən deyirəm: "Vətən sağ olsun!".

Əzizə Həsənova ilə bu söhbətimiz qəhrəman şəhidimiz Fariz Həsənovun şəxsiyyətinin və dəyərlərinin sanki bir portretini çəkir. Əzizə xanımın həyat yoldaşı haqqında dedikləri, Farizin timsalında neçə-neçə qəhrəman igidlərin Vətənə olan sədaqətinin təsvirini yaradır.

Ey Vətən oğulları, sizin igidliyiniz və şəhidliyiniz bizim üçün nur saçan bir çıraqdır. Sizlərin fədakarlığı, bizim müstəqilliyimizin, suverenliyimizin təməlidir. Hər birinizin əziz xatirəsi qarşısında baş əyirik.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

*Gənc zabitlərimiz*

# Bayram da peşəkar zabitlərdən olacaq

Əslən Laçın rayonunun İpək kəndindən olan Bayram Süleymanov orta təhsilini Kürdəmir rayonu Çöhranlı kənd tam orta məktəbində başa vurduqdan sonra müddətli həqiqi hərbi xidmətə yollanır. Xidmətini isə Murovdağı istiqamətində düşmənlə üz-üzə mövqelərdə çəkib. Hər zaman hərbçi olmaq istəyən Bayram xidməti zamanı bunu qarşısına bir məqsəd kimi qoyub. Bir müddət keçdikdən sonra "Azərbaycan Ordusu" qəzetində "Gizir hazırlığı kursu"nun elanını görür. Tərəddüd etmədən komandirlərinə bu kursda iştirak etməyini və gələcək həyatını orduya bağlamaq istədiyini bildirir. Kursa qəbul olan Bayram burada peşəkar müəllimlər tərəfindən öyrədilən bütün biliklərə yiyələnir və təcrübəli döyüşçü kimi formalaşır. Kursu müvəffəqiyyətlə başa vurduqdan sonra gizir hərbi rütbəsi ilə müxtəlif hərbi hissələrdə xidmət edir. Tabeliyindəkilərə qarşı tələbkar və qayğıkeş olan Bayram qısa müddət ərzində həm şəxsi heyətinin, həm də komandirlərinin hörmət və rəğbətini qazanır.

Atası Yelmar əmiləri Akif və Qaryağdı Birinci Qarabağ müharibəsinin iştirakçısı olan Bayram Süleymanov mənfur düşmənin 2016-cı ilin aprelində həyata keçirdiyi təxribatlarının qarşısını almaq məqsədilə başlayan döyüşlərdə iştirak etdi. O, hər bir Azərbaycan hərbçisi kimi düşmənə göz dağı verdi. Qarşıya qoyulan tapşırıqların öhdəsindən bacarıqla gəldi. Amma döyüşlərin tez başa çatdığı üçün kədərlənmişdi. Çünki hər zaman işğalçılardan qisas almağı və onları doğma torpaqlarımızdan qovub çıxaranlardan olmaq istəyirdi. Lakin arzusunun bir neçə ildən sonra həyata keçəcəyini heç gözləmirdi. Aprel döyüşlərindən özünə bir nəticə çıxarmayan düşmən təxribatlar törətməkdən çəkinmədi. Lakin 2020-ci ilin sentyabrında mənfurların ordumuzun bütün cəbhə boyu bölmələrinə və mülki yaşayış məntəqələrimizə qarşı olan təxribatları səbrimizin son damlası oldu. Müzəffər Ali Baş Komandanımızın döyüş əmri ilə rəşadətli ordumuz əks-hücum əməliyyatına başladı. Bu əməliyyat Vətən müharibəsi idi. Döyüşlərin ilk günündən etibarən bu anın arzusu ilə yaşayan Bayram si-



lahdaşları ilə düşmənə göz dağı verməyə başladı. Onun təcrübəsi sayəsində düşmənin çoxlu sayda canlı qüvvəsi və texnikaları məhv edildi. Bir vaxtlar məğlubedilməz adlandırdıqları düşmən ordusu darmadağın edildi. Lakin Qubadlı istiqamətində gedən ağır döyüşlər zamanı o, düşmənin atdığı minaatan mərmisinə tuş gələrək ağır yaralandı. Silahdaşları onu döyüş meydanından təxliyə edib.

Sağaldıqdan bir müddət sonra Bayram zabit olmaq üçün müvafiq kursa qəbul olur. Tədris dövründə öyrədilənləri dərindən mənimsəyən məğrur döyüşçümüz kursu müvəffəqiyyətlə başa vuraraq, "kiçik leytenant" rütbəsinə layiq görülür. Artıq zabit kimi xidmətini davam etdirən Bayram şəxsi heyətini də təcrübəli hərbçi kimi yetişdirmək naminə səylə çalışır. B.Süleymanov söhbətimiz zamanı bildirdi ki, əsgərlərimiz hərbi xidmət dövründə döyüş vərdişləri qazanmaqla, Vətənimizin etibarlı döyüşçüləri kimi yetişirlər. Bizim də əsas vəzifəmiz onları peşəkar döyüşçü kimi hazırlamaqdır. Hər birinin fiziki, atəş, döyüş hazırlıqları ilə yanaşı, mənəvi-psixoloji hazırlıqlarını da daim diqqət mərkəzində saxlayırıq. Kurs müddətində bildiklərimizi, öyrəndiklərimizi və təcrübəmizi onlara öyrədirik ki, Vətənimizin müdafiəsi etibarlı əllərdə olsun. Ümid edirəm ki, qarşımıza qoyulan tapşırıqların öhdəsindən gəlir, Vətənimizə layiqli döyüşçülər formalaşdırırıq.

Tabeliyində xidmət edənlərə qarşı son dərəcə tələbkar və qayğıkeş olan zabit dedi ki, komandir hər şeydən əvvəl tabeliyində olanlara şəxsi nümunə olmağı bacarmalıdır. Buna görə də özünə qarşı iki qat tələbkar olmalısan. Mütəmadi olaraq mütaliə etməli, zahiri görünüşünə fikir verməli, şəxsi heyətinin təlim-tərbiyəsi ilə maraqlanmalısan.

Xidməti vəzifələrinin öhdəsindən layiqincə gələn kiçik leytenant B.Süleymanovla söhbət bizlərə xoş təəssürat bəxş etdi. Belə vətənpərvər və bacarıqlı hərbi qulluqçuların sayəsində həm torpaqlarımızın müdafiəsinin əmin əllərdə olduğuna, həm də əsgərlərimizin hərtərəfli hazırlıqlı yetişəcəklərinə əmin olduq. Biz də öz növbəmizdə gənc zabitimizə gələcək xidmətlərində uğurlar arzulayırıq.

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**
**"Azərbaycan Ordusu"**

# Müstəqillik qürur tariximizdir



Günəşli yaz səhəriydi. Azərbaycan əsgərinin görüşünə tələsirdik. Avtomobildən ətrafı seyr edirik. Gördüyümüz mənzərə könül oxşayırdı. Hər yan yamyaşıldı. İllər əvvəl bu yol belə deyildi, sürücülər çarəsizlikdən üz tutmalı olurdularsa, indi isə tamam əksinədi. Ölkəmizin sosial-iqtisadi inkişafı yollarımızın da görkəmini dəyişib. Uzandıqca uzanan yollar orta yaşlı sürücünün maraqlı söhbətləri ilə qısalır. Sürücü 30 ilə yaxın erməni işğalı altında qalmış qədim dədə-baba yurdumuz Qarabağın və onun ətraf rayonlarının cəmi 44 gün davam edən müharibə ilə azad edilməsindən, ordumuzun döyüş qüdrətindən, Ali Baş Komandanın qətiyyətindən qürurla danışırdı. Dövlətimizin başçısı işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti quruculuq işlərinə tez-tez baş çəkməklə bir zamanlar ev-eşiklərini tərk etməyə məcbur olmuş soydaşlarımızın mərhələlərlə qayıdışının təmin edilməsi günümüzün reallığıdır.

**Şəhidlərə ehtiram**. Kanal boyu uzanan yolun solunda salınmış meşə zolağı, səma rəngli iydə ağaclarının çiçəklərinin qoxusu avtomobilin açıq pəncərəsindən salona doldoqca düşünürdüm ki, Vətənimizin hər bir guşəsi bu cür təravətlidir. Mənzil başına çatdıq. Hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin yaxınlığında şəhidlərə ucaldılmış xatirə kompleksi önündə əkilən gül-çiçəklər də Qarabağ müharibəsində şəhid qəhrəmanlara olan sonsuz sayğının təcəssümüdü.

**5 il öncə** - bu hərbi hissə mənim hərbi xidmətimin məbədi idi… Beş il öncə bu hərbi hissənin açılışında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də iştirak edib. Dövlətimizin başçısı hərbi hissədə əsgər yataqxanasına, yeməkxanaya, tibb məntəqəsinə, avtomobil parkına və digər mühüm xidmət yerlərinə baş çəkmişdi. Əsgər yeməkxanasında döyüşçülərlə bir masada əyləşib nahar da etmişdi.

28 May - Müstəqillik Günündə yenidən burada olmaq fərqli hisslər yaşatdı. Şəxsi heyət hərbi hissənin sıra meydanında düzülüb bayram tədbirinin başlayacağı anı gözləyirdi.

Sıra önünə gələn polkovnik-leytenant Elvin Bayramov rəsmi qaydada qarşılandı. Zabit tədbiri açıq elan etdi. Zəruri hərbi rituallar yerinə yetirildi.

Zabit çıxışında bildirdi ki, 1918-ci il mayın 28-də müsəlman şərqində ilk dəfə Demokratik Respublika Azərbaycanda elan olunub. Xalqımızın qabaqcıl ziyalıları, dövlət və ictimai-siyasi xadimləri ötən əsrin əvvəllərində dünyəvi, demokratik dəyərlərə cavab verən bir dövlət qurulduğunu bildirdi. Vətənpərvər Azərbaycan övladlarının qurduğu dövlət bolşevik-daşnak dəstələrinin fəallığı, təsiri, bədxahlığı nəticəsində möhkəmlənib inkişaf edə bilmədi və 23 ayın tamamında Qızıl Ordu tərəfindən ilhaq edildi. Buna baxmayaraq, xalqımızın azadlıqsevər oğul və qızları bolşeviklər tərəfindən ilhaq edilmiş Azərbaycan Demokratik Cümhuriyyətinin ideyalarını bərqərar etmək üçün zaman-zaman mübarizə aparırdılar. Xalqımızın apardığı milli-azadlıq hərəkatı 70 ildən sonra öz nəticəsini verdi. 1991-ci ilin oktyabrında xalqımız dövlət müstəqilliyini bərpa etdi. Onda da müstəqilliyimizin əleyhdarları baş qaldırdı, xarici ölkələrin də təsiri açıq-aşkar hiss olunurdu. Bunun nəticəsində ölkə daxilində gərginlik hökm sürdü, siyasi böhran vətəndaş müharibəsi həddinə çatmışdı. O zaman xalqımızı və dövlətçiliyimizi bu ağır vəziyyətdən xilas edə biləcək şəxsiyyət Naxçıvan Ali Məclisinin sədri olan Heydər Əliyev idi. Xalqın təkidi ilə siyasi hakimiyyətə yenidən qayıdan Ulu Öndər Heydər Əliyev qısa müddətdə ölkə daxilində siyasi sabitliyi bərpa etdi. Azərbaycanın ərazi bütövlüyünə qarşı baş qaldıran erməni silahlı dəstələrinin hücumlarının qarşısını almaq üçün gərəkli tədbirlər gördü. Orduda hökm sürən pərakəndəliyi, itaətsizliyi aradan qaldırdı və vahid komandanlıq altında birləşən ordunu formalaşdırdı.



Ulu Öndər Heydər Əliyevin formalaşdırdığı ordu dərsliklərə əlavə olunası döyüş yolu keçdi. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordumuz daha da gücləndi, müasir silah və döyüş texnikaları ilə təchiz edildi, dünyanın ən güclü ordularından biri oldu.

"Azərbaycan Ordusu" qəzetinin əməkdaşı, Əməkdar jurnalist, istefada olan mayor Rəşid Hüseynov Müstəqillik Günündə hərbi hissədə olmağından qürur duyduğunu bildirdi. Azərbaycan Ordusunun son dörd ildə qazandığı uğurlar, döyüşlərdə əldə etdiyi qələbələr xalqımızın erməni işğalı altında qalmış torpaqlarımızın azad ediləcəyinə olan ümidləri gerçəkləşdirir. Sırada dayanan hərbçilərə xitabən: - Sizin davamçısı olduğunuz döyüşçülərin qazandığı tarixi Zəfərin artıq dərsliklərə əlavə olunduğunu, bir sıra xarici ölkə ordularının da ordumuzun döyüş təcrübəsini öyrənməyi özlərinə borc bildiyini qeyd etdi. Bu cür yüksək döyüş qabiliyyətinə malik olan ordumuzun hərbi qulluqçularının keçdiyi döyüş yolundan, onların şərəfli həyat yolunu işıqlandırmağı bir vətəndaş olaraq özünə şərəf bildiyini qeyd etdi. "Azərbaycan Ordusu" qəzetinin kollektivi adından hərbi qulluqçuları Müstəqillik Günü münasibətilə təbrik etdi, onlara gələcək xidmətlərində uğurlar dilədi.

Tədbirdə çıxış edən baş leytenant Elnur Məmmədov və başqaları şəxsi heyəti təbrik edib, onlara ən xoş arzularını bildirdilər.

Mayor Rauf Zeynalov hərbi hissə komandirinin Müstəqillik Günü ilə bağlı şəxsi heyətin həvəsləndirilməsi haqqında imzaladığı əmri oxudu. Xidmətdə fərqlənən hərbçilərə fəxri fərmanlar təqdim edildi. Şəxsi heyət tribuna önündən təntənəli marşla keçdi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Müstəqillik günü hərbi hissələrdə qeyd olundu



Müdafiə Nazirliyinin təsdiq etdiyi tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə hərbi hissə və birləşmələrdə 28 May - Müstəqillik Günü münasibətilə silsilə tədbirlər keçirildi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi böyük ehtiramla yad olundu.

Mərkəzin əməkdaşları Azərbaycan xalqının dövlətçilik tarixində və şərqdə ilk demokratik respublika olan ADR-in yaranmasından ətraflı danışdılar. Bildirdilər ki, Azərbaycan qədim dövlətçilik tarixi olan bir diyardır. XX yüzillikdə 1918-ci ilin 28 mayında Milli Şura "İstiqlal Bəyannaməsi"ni qəbul etdi. Qısa müddətdə ADR dünya dövlətləri tərəfindən tanındı. Bir çox dövlət qurumları yaradıldı. Ordu quruculuğuna xüsusi diqqət yetirildi. 23 ay sonra bolşeviklər tərəfindən Azərbaycan ilhaq olundu, Azərbaycan Xalq Cümhuriyyəti süquta uğradı. Ölkəmiz İttifaq dövlətinin tərkibinə qatıldı.

Sovet İmperiyası 70 il davam etsə də, xalqımız heç vaxt azadlıq, müstəqillik yolundan dönmədi, böyük amal, məqsəd uğrunda mübarizəsini davam etdirdi.

1991-ci ilin oktyabrında Azərbaycan Milli Məclisi müstəqillik haqqında qanun qəbul etdi. Bizə yaxın və uzaq ölkələr dövlətimizin müstəqilliyini tanıdı. Müstəqilliyin ilk illəri böyük çətinliklərlə, hakimiyyət səriştəsizliyi ilə qarşılaşdı. Ermənistan ölkəmizə qarşı elan olunmamış müharibəyə başladı.

Çox ağır, məşəqqətli dönəmdə xalqımız və ziyalılar çıxış yolunu Ulu Öndərin hakimiyyətə qayıdışında gördülər, onun təkidlə hakimiyyətə gəlməsini tələb etdilər. Böyük tarixi şəxsiyyət xalqın müraciətini qəbul etdi. 15 iyun 1993-cü ildə Milli Məclisin sədri seçildi. Bildirdi ki, həyatının qalan hissəsini xalqına, Vətəninə həsr etməyə hazırdır. Tarixi gündən sonra ölkəmizin həyatında yeni dövr başlandı.

1993-cü ilin oktyabrında xalqın böyük dəstəyi ilə Prezident seçilən Ulu Öndər çox keçmədi ki, ölkəmizdə ictimai-siyasi sabitliyi təmin etdi. Genişmiqyaslı islahatlar həyata keçirildi. Hüquqi-demokratik islahatlara daha çox üstünlük verildi və Azərbaycanda bəşəri dəyərlərə əsaslanan, hüquqi-demokratik dövlətin qurulduğu bəyan edildi. Ölkəmiz dünya miqyasında etibarlı tərəfdaş kimi tanındı.

Aparılan islahatlar ordudan da yan keçmədi. Nəticədə 1994-cü ildə Füzuli bölgəsində işğalçılara qarşı keçirilən uğurlu hərbi əməliyyatdan sonra düşmən atəşkəs müqaviləsini imzaladı. Ölkəmizin sürətli inkişafına nail olan Ulu Öndərin həyata keçirdiyi islahatlar nəticəsində bütün sahələrdə tərəqqiyə, yüksəlişə nail olundu. Ulu Öndər qətiyyətlə bildirirdi ki, Azərbaycanın müstəqilliyi əbədidir, dönməzdir və sarsılmazdır.



2003-cü ilin oktyabrında prezident seçilən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin siyasi kursunun layiqli davamçısı oldu. Onun bütün sahələrdə inkişaf strategiyalarını yüksək səviyyədə həyata keçirməyə başladı. Ölkəmiz regionun iqtisadi, siyasi, hərbi cəhətdən inkişaf etmiş lider dövlətinə çevrildi. Azərbaycan Ordusu Qafqaz bölgəsinin ən güclü, qüdrətli ordusu oldu. Beynəlxalq aləmdə iqtisadi layihələrin həyata keçirilməsi ölkəmizin nüfuzunu daha da artırdı.

30 ilə yaxın Ermənistan ordusu və separatçı qüvvələr tərəfindən işğal olunmuş torpaqlarımız 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə azad olundu. Xalqımız dünyada qalib, polad iradəli tarixi ədaləti bərpa edən xalq kimi tanındı.

Bütün bunlara çağdaş Azərbaycan varisi olduğu Azərbaycan Demokratik Respublikasının amallarına sədaqətlə nail oldu...

Mərkəzin əməkdaşları müstəqilliyə tariximizə dair viktorinalar, disputlar təşkil etdilər. "Əsgərə məktub" layihəsi əsasında Vətən keşiyində dayanan əsgərlərə ictimaiyyət nümayəndələri tərəfindən məktublar ünvanlandı. Vətənin müstəqilliyini tərənnüm edən mahnılar, musiqi nömrələri səsləndirildi. Qaliblərə döş nişanları təqdim olundu.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## **Mövzu:** Azərbaycan Ordusunun yaranması və formalaşması tarixi

**Suallar:**

**1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu.**

**2. Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri.**

### Azərbaycan Xalq Cümhuriyyəti dövründə ordu quruculuğu

Ordu bir dövlətin, onun xalqının, milli sərvətlərinin, mədəniyyətinin, tarixinin, bütövlüyünün və birliyinin qorunmasının əsas şərti, amilidir. Ordu həm də güc göstəricisi, siyasi arenada dövlətlərin sözünün kəsərini artıran, mövqeyini qəbul etdirən böyük bir silahdır. İstər keçmiş, istərsə də müasir geosiyasi şərait güclü dövlət olmağın əsas şərti kimi qüdrətli orduya sahib olmağı ön plana çıxarır.

Azərbaycan müstəqillik əldə edənə qədər bəşəriyyət tarixinin ən dəhşətli və ən qanlı hərbi-feodal müstəmləkə rejimi olan Rusiya imperiyasının tərkibində idi. Birinci Dünya müharibəsinin gedişində və Romanovlar monarxiya rejiminin devrilməsi nəticəsində yaranmış çox mürəkkəb bir tarixi şəraitdə Azərbaycanın Şimal torpaqlarında dövlətçilik ənənələrimiz yenidən, parlamentli respublika formasında dirçəldi. Birinci Dünya müharibəsində böyük dövlətlərin dünyanı bölüşdürmək uğrunda mübarizəsinin həlledici mərhələyə daxil olduğu və ölkənin başı üzərinin yeni işğal təhlükəsinin aldığı çox mürəkkəb bir daxili və beynəlxalq tarixi şəraitdə fəaliyyət göstərən Azərbaycan Parlamenti öz fəaliyyətinin mühüm hissəsini dövlət müstəqilliyinin qorunub saxlanılmasına və ordu quruculuğu məsələlərinə yönəltmişdi. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Rusiya imperiyası dövründə keçmiş Tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və general Əlağa Şıxlinskinin rəhbərlik etdiyi Müsəlman korpusunun əsasında ilk ordu hissəsi olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. Bu addım xalqımızın dövlətçilik tarixində özünəməxsus yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin ən böyük xidmətlərindən biri kimi tarixləşdi. Gənc Demokratik Cümhuriyyətin yaradıcıları milli dövlətçiliyimizi qorumaq, ölkəni xarici müdaxilələrdən müdafiə etmək, daxili düşmən qüvvələrini zərərsizləşdirmək üçün özünün silahlı qüvvələrini yaratmaqla, milli dövlətçiliyimiz yolunda ölçüyəgəlməz, qarşısıalınmaz bir prosesə başladılar.

1918-ci ildə dünyada və regionda baş verən ictimai-siyasi hadisələrə görə Azərbaycanda mövcud olan milli hərbi qüvvələrin və Azərbaycan dövlətinə göndərilmiş olan Osmanlı hərbi qüvvələrinin bazasında Qafqaz İslam Ordusu yaradıldı və ordu hissələrinin fəaliyyətinə rəhbərlik Azərbaycan hökumətinin razılığı ilə Qafqaz İslam Ordusu komandanına həvalə edildi. Qafqaz İslam Ordusunun mövcudluğu dövrü Azərbaycan Xalq Cümhuriyyətinin ordu quruculuğunun birinci mərhələsini təşkil etmişdir. 1918-ci il noyabrın 1-dən isə Cümhuriyyətin ordu quruculuğunun ikinci mərhələsi başlayır. Həmin gün Azərbaycan hökuməti Hərbi Nazirliyin bərpa edilməsi haqqında qərar qəbul etdi. F.Xoyski Hərbi nazir, S.Mehmandarov nazir müavini təyin edildi və nazirliyin formalaşdırılması ona həvalə edildi. "Mudros" (30.10.1918-ci ildə Osmanlı və Antanta dövlətləri arasında bağlanmış sülh müqaviləsi) müqaviləsinin şərtlərinə görə Azərbaycana gəlməli olan ingilis qüvvələri komandanı general Tomson Bakı şəhərinin istər iqtisadi baxımdan, istərsə də hərbi-siyasi cəhətdən mühüm strateji mərkəzi olması səbəbindən nəzarəti tamamilə əlində saxlamaq məqsədilə türk qoşunları kimi, Azərbaycan Ordusunun da 1918-ci il noyabrın 17-dək Bakı şəhərini tərk etməsini tələb edirdi. Bu səbəbdən 1918-ci il noyabrın 22-də Hərbi Nazirlik Gəncə şəhərinə köçdü. Hərbi Nazirliyin Gəncə şəhərinə köçürülməsi hökumət orqanlarının əlaqələrində və bütövlükdə ordunun formalaşması prosesində çətinliklər yaradırdı.

1918-ci ilin sonu 1919-cu ilin əvvəlində yenidən Hərbi Nazirliyin rəhbərliyində və strukturunda qismən dəyişiklik edildi ki, bu da ordunun formalaşması prosesinə müsbət təsir göstərdi. Tam artilleriya generalı S.Mehmandarov hərbi nazir, general-leytenant Ə.Şıxlinski hərbi nazirin müavini təyin edildi. Hərbi nazirliyin bərpa edilməsindən sonra, ilk növbədə, pərakəndə olan hissələri möhkəmləndirmək, onları vahid rəhbərlik altına gətirmək üçün mərkəzi hərbi idarəetmə orqanlarının təşkilinə diqqət yetirildi. Qısa müddət ərzində Hərbi Nazirliyin aparatı və Ümumi Qərargah (Qlavnıy ştab) yaradıldı. Orduda xidmətin təşkilinin hüquqi əsasda nizamlanmasına xüsusi diqqət yetirildi. Qısa müddət ərzində Azərbaycan Ordusunun yeni qanunvericilik bazasının yaradılması mümkün olmadığı üçün 1917-ci il yanvarın 1-dək keçmiş Rusiya imperiyasında qəbul edilmiş hərbi qanunvericilik aktları qüvvədə saxlanılırdı. Ancaq bu qanunvericilik aktlarının Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi, milli orduda xidmətin bu və ya digər tələbləri uyğun gəlməyən tələbləri ləğv edilirdi. Ordu quruculuğuna türk və rus təcrübəsinin güclü təsirə malik olmasına baxmayaraq, Azərbaycanda milli zəminə söykənən ordu formalaşdırıldı. Azərbaycan dili orduda da dövlət dili elan edildi. Azərbaycan dilinin öyrənilməsi və savadsızlığın ləğvi üçün orduda kurslar yaradıldı. Azərbaycan döyüşçüsünün mənəvi dünyasının yaradılmasında mənsub olduğu xalqın tarixi keçmişinin öyrənilməsinə, onun qəhrəmanlıq nümunələri üzərində tərbiyələndirilməsinə böyük əhəmiyyət verilirdi. Hərbi Nazirliyin bərpasının ilk günlərindən hərbi qulluqçuların geyim formasının da milliləşdirilməsi və onun Azərbaycan Ordusuna uyğunlaşdırılması üçün zəruri tədbirlər görüldü.

Yeni dəyərlər üzərində qurulan ordunun milli kadrların hazırlanması da Hərbi Nazirliyin qarşısında duran əsas vəzifələrdən biri idi. Bu vəzifənin həllinə nail olmaq üçün hələ türk qoşunlarının Azərbaycanda olduğu vaxt Gəncə şəhərində fəaliyyət göstərən hərbi məktəbin fəaliyyəti yenidən quruldu və onun statusu artaraq praporşiklər məktəbinə çevrildi. Praporşiklər məktəbinin bazasında Hərbiyyə məktəbi açıldı. Bundan başqa Azərbaycan Ordusunun milli hərbi kadrlar hazırlayan istehkam və hərbi dəmiryolçular məktəbi, həmçinin feldşer məktəbi açıldı. Obyektiv çətinliklər (Sentrokaspi diktaturası və ingilis müdaxiləçilərinin təmizlənilməsi) üzündən hərbi-dəniz qüvvələrinin təşkilinə 1919-cu illərin sonlarında başlanıldı. Hərbi Nazirlik hərbi-hava qüvvələrinin təşkilinin zəruriliyini nəzərə alaraq müvafiq kadrların hazırlanması üçün 1919-cu ildə Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi bağladı. Bu müqaviləyə əsasən Azərbaycandan bir qrup heyət təyyarəçi peşəsinə yiyələnməsi üçün Tiiflis Aviasiya məktəbinə göndərilmişdir. Milli kadrlara olan ehtiyaclarının ödənilməsi üçün isə Hərbi Nazirlik 1920-ci ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbini açmışdır.

### Azərbaycan Ordusunun yaranmasının hüquqi əsasları və inkişaf mərhələləri

Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması, inkişafı müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, milli həmrəylik və bütövlüyünü təmin edən azərbaycançılıq ideologiyasının banisi, xalqımızın və dövlətimizin xilaskarı Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik Azərbaycan xalqının Ümummilli Liderinin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvanda başlanılmışdır. O dövrdə Ulu Öndərin Muxtar Respublikada ordu quruculuğu istiqamətində həyata keçirdiyi məqsədyönlü tədbirlər blokada şəraitində yaşayan Naxçıvanı düşmən hücumlarından qorumaqla bərabər, müstəqil Azərbaycanda Milli Ordu quruculuğu prosesinin növbəti mərhələsinin başlanğıcı oldu.

Azərbaycan Ordusunun yaranması və müasir tələblər səviyyəsində formalaşması məhz ağır, mürəkkəb və keşməkeşli yollardan keçmişdir. Ermənistanın təcavüzü, dövlətçiliyin itirilməsi təhlükəsi, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğalına şərait yaradır, bir tərəfdən də ordumuzun yaranmasına mane olurdu. Böyük sərkərdə, hərb elminin bütün incəliklərini dərindən bilən Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızın həyatının bütün sahələrində olduğu kimi, ordu quruculuğu da planlı surətdə həyata keçirilməyə başladı. İlk növbədə qanunsuz hərbi dəstələr buraxıldı, Silahlı Qüvvələr dövlət nəzarətinə alındı. Digər ölkələrin nümunələrindən, Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişənin təcrübəsindən istifadə olunaraq mükəmməl hərbi qanunvericilik sistemi yaradıldı. Ulu Öndərin titanik fəaliyyəti nəticəsində güclü Azərbaycan Ordusu yaradılmağa başlandı. Ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərinə qoyulması, vahid komandanlıq prinsipinin həyata keçirilməsi Qarabağ iqtisadi rayonunda ordumuzun apardığı döyüş əməliyyatlarına öz müsbət təsirini göstərdi. Ulu Öndərin sərkərdəliyi ilə o dövr üçün olduqca gərəkli Horadiz əməliyyatı keçirildi. Qələbə ilə nəticələnən bu əməliyyat ordunun şəxsi heyətinin döyüş əzmini, qələbə ruhunu kükrətdi. Azərbaycan əsgəri inandı və ictimaiyyəti inandırdı ki, ordumuz torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Bu inam xalqın orduya münasibətinin başlıca tərkib hissəsi oldu.

1993-cü il noyabrın 2-də Ulu Öndər Heydər Əliyevin Azərbaycan Dövlət Televiziyası və Radiosu ilə xalqa müraciətdən sonra qəlbində Vətən sevgisi olan, respublikamızdan kənarda hərbi xidmət keçən peşəkar zabitlərin, kadrların Azərbaycana axını ilə müasir Azərbaycan Ordusunun əsası qoyuldu. Dövlət Müdafiə Şurasının ilk iclasında rüşvətxorluğa, cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı barışmaz mübarizə aparılacağının bəyan edilməsi, çağırış və səfərbərliyin, hərbi komissarların işinin günün tələblərinə uyğun qurulması, fərarilərə, xidmətdən yayınanların hamısına qarşı ciddi cəzaların tətbiq olunması istiqamətində atılan qətiyyətli addımlar Azərbaycan Ordusunun döyüş hazırlığının yüksəlməsinə səbəb oldu. Ordu quruculuğu sahəsində aparılan işlərin sistemləşdirilməsi, mərkəzləşdirilməsi, hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi, ordunun vahid komandanlıq prinsipi əsasında fəaliyyət göstərməsi qısa müddətdən sonra öz səmərəsini verdi.

Ulu Öndər Heydər Əliyev ordu quruculuğu prosesinə hələ 1969-cu ildə respublikaya rəhbər seçilməsi ilə başlamışdır. Belə ki, hərbi kadr sahəsində atdığı addımlar, Cəmşid Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış orta məktəbin əsasının qoyulması, azərbaycanlıların ölkə xaricində hərbi məktəblərə daxil olmasının təmin edilməsi, milli zabit kadrlarımızın vəzifələrə irəli çəkilməsi Azərbaycan dövlətinin hərb tarixində yeni bir mərhələnin əsasını qoydu. Ulu Öndər tərəfindən ordu quruculuğu sahəsində milli maraqlarımızın qorunaraq, inkişaf etdirilməsi istiqamətində atılan tarixi addımlar sonradan müstəqil Azərbaycan Respublikasında mərkəzləşdirilmiş nizami ordunun yaranmasına təkan oldu. Ulu Öndər Heydər Əliyev güclü və intizamlı ordunun yaradılmasının, həm də yüksək ixtisaslı milli zabit kadrların mövcudluğundan asılı olduğunu nəzərə alaraq, Silahlı Qüvvələrin Hərbi Akademiyasını (Hərbi İdarəetmə İnstitutu) yaratdı, Ali Hərbi Dənizçilik və Ali Hərbi Təyyarəçilik Məktəblərini (Heydər Əliyev adına Hərbi İnstitut) formalaşdırdı. Azərbaycanda ali hərbi məktəblər sisteminin yaradılması, onun tədris prosesinin NATO-ya üzv olan ölkələrin hərbi təhsil sisteminin üstünlüklərinə uyğun olaraq qurulması ilə Azərbaycan Ordusu ciddi, hazırlıqlı, vətənpərvər zabit kadrları ilə təchiz edilir. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycan Respublikasının qüdrətli və intizamlı orduya malik olması məhz Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, peşəkarlığının artırılması fasiləsiz, yəni, hər gün davam edən bir prosesdir. Məlumdur ki, hər bir ordunun qüdrəti - onun döyüş qabiliyyəti ilə mənəvi gücünün vəhdətində reallaşır. Bu gün Azərbaycan cəmiyyətində, eləcə də Azərbaycan Ordusunda Ulu Öndər Heydər Əliyev tərəfindən hazırlanmış və elmi-nəzəri prinsipləri zamanın sınağından çıxmış mükəmməl hərbi vətənpərvərlik konsepsiyası mövcuddur. İstər sülh, istərsə də müharibə dövründə hərbi qulluqçularda Vətənə, xalqa, dövlətçiliyimizə sədaqət və məhəbbət hisslərinin möhkəmləndirilməsi, onların ümumdövlət mənafeləri ətrafında səfərbər edilməsi bu istiqamətdə aparılan fəaliyyətin əsas məqsədləridir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev azərbaycanlı olmağıyla həmişə qürurlanan, çağdaş Azərbaycan dövlətçiliyinin memarı olan dahi şəxsiyyət Heydər Əliyevin ordu quruculuğu siyasətini bu gün də uğurla davam etdirir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə hər il qoşunların idarəetmə, döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Ordusunda komanda-qərargah hərb oyunları və taktiki təlimlər keçirilir. Bu təlimlərdə müasir döyüş taktikası tətbiq edilir, dünyada ən qabaqcıl təcrübə öyrənilir. Eyni zamanda, bu təlimlər dost və tərəfdaş ölkələrdə də davam etdirilir. Bu təlimlərdə qazanılan təcrübənin məntiqi nəticəsi idi ki, Azərbaycan Ordusu bəşər tarixinin ən müasir müharibəsini aparmaqla Azərbaycan Respublikasının Ermənistanın işğalına məruz qalmış ərazilərini azad edərək respublikamızın ərazi bütövlüyünü təmin etdi. Azərbaycan həm 44 günlük Vətən müharibəsində, həm də qanunsuz hərbi birləşmələrə qarşı antiterror tədbirlərində döyüşmək bacarığını, güclü-müasir Ordusunu, ən son hərbi texnika üzrə təlim keçmiş yeni nəsil mütəxəssislərini, mühəndislərini, zabitlərini, elit xüsusi təyinatlı hərbçilərini nümayiş etdirdi.

Azərbaycan Respublikasında ordu dövlət üçün prioritetdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırmasına dair sərəncamları dövlətin orduya qayğısının geniş ölçülü təzahürüdür. Bu qayğı dönməzdir, daimidir. Azərbaycanda ordu quruculuğu dönməz prosesdir. Bu proses ordunun döyüş qabiliyyətinin, şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsinə xidmət edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmdirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Təkmilləşdirmə kursunun növbəti buraxılışı oldu



Vətən müharibəsindən sonra ordu quruculuğunun yeni mərhələsi başladı. Bu mərhələdə xüsusi təyinatlı təhsil müəssisələrinin fəaliyyətində də əsaslı islahatlar aparıldı - Milli Müdafiə Universiteti yaradıldı, Hərbi Akademiya fəaliyyətini Hərbi İdarəetmə İnstitutu və Hərbi Elmi-Tədqiqat İnstitutu kimi davam etdirməyə başladı, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbin statusu dəyişdirildi - Heydər Əliyev adına Hərbi İnstitut adlandırıldı. Əvvəllər Hərbi Akademiyanın yerinə yetirdiyi tədris vəzifələrini indi Hərbi İdarəetmə İnstitutu yerinə yetirir.

Mayın 30-da Hərbi İdarəetmə İnstitutunda Əməliyyat taktiki fakültədə "Qərargah zabitləri" səviyyəsində təkmilləşdirmə kursunun 67-ci buraxılışı oldu. Dinləyicilər bu tədbiri zabit kimi hərbi xidmətdə ən yaddaqalan gün adlandırdılar.

Buraxılış tədbirində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi, Azərbaycanın Dövlət Himni səsləndirildi.

Tədbiri Hərbi İdarəetmə İnstitutunun rektoru polkovnik Elnur Ələsgərli açaraq Vətən müharibəsində qazanılmış tarixi Zəfərdən



sonra ordu quruculuğunda həyata keçirilən əsaslı islahatlardan, hərbi təhsil istiqamətində tətbiq edilən elmi və pedaqoji yeniliklərdən, təkmilləşdirmə kursunun elmi mahiyyətindən, onun ordu quruculuğu prosesində əhəmiyyətindən danışdı. Qeyd etdi ki, təkmilləşdirmə kursları bilavasitə şəxsi heyətin döyüş hazırlığının yüksəlməsinə əsaslı təsir göstərir, Hərbi İdarəetmə İnstitutunun rektoru polkovnik Elnur Ələsgərli onu da bildirdi ki, kursu bitirən zabitlər hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının təşkilində öyrəndiklərini uğurla tətbiq edəcəklər.

Kursu yüksək nəticələrlə bitirən mayor Bayram Hüseynov dinləyicilər adından İnstitutun rəhbərliyinə təşəkkürünü bildirdi.

Təkmilləşdirmə kursunu bitirənlərə sertifikatlar təqdim edildi.

Tədbirin sonunda xatirə şəkli çəkdirildi.

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Amerikalı general: ABŞ ilə Azərbaycan sülhü və stabilliyi gücləndirmək naminə birgə səy göstərir



Azərbaycanın ABŞ-dakı səfirliyinin təşkilatçılığı ilə Vaşinqtonda 28 May - Müstəqillik Gününə və 26 İyun - Silahlı Qüvvələr Gününə həsr olunmuş qəbul keçirilib.

AZƏRTAC xəbər verir ki, qəbulda əvvəlcə hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Daha sonra çıxış edən səfir Xəzər İbrahim ABŞ-la Azərbaycan arasında əməkdaşlığın dərin tarixə malik olduğunu deyib. Onun sözlərinə görə, iki ölkə arasında hər zaman mükəmməl əlaqələr mövcud olub. Səfir Müstəqillik Günü ilə bağlı ABŞ Prezidenti Cozef Baydenin Azərbaycan Prezidenti İlham Əliyevə məktub ünvanladığını qeyd edərək bildirib ki, məktubda 30 ildən artıq tarixə malik diplomatik münasibətlər dövründə ABŞ ilə Azərbaycanın qarşılıqlı maraq kəsb edən güclü tərəfdaşlıq əlaqələri qurduğu qeyd edilib.

Azərbaycanın bu il COP29-a ev sahibliyini qeyd edən diplomat Azərbaycan Prezidentinin kiçik ada dövlətlərinə yardımla bağlı beynəlxalq ictimaiyyətə müraciət etdiyini deyib. Onun sözlərinə görə, Azərbaycan iqlimlə bağlı yerli gündəlik üzərində işləyir və Xəzər dənizinin külək enerjisinin Avropa bazarına çıxarılması ilə bağlı meqa layihələr həyata keçirilir.

Səfir bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra regionda sülh üçün əla fürsət yaranıb.

Daha sonra Azərbaycanın ABŞ-dakı hərbi attaşesi Rüstəm Gözəlov Azərbaycan Xalq Cümhuriyyəti qurulan zaman onun qarşıya qoyduğu əsas məqsədlərdən birinin də ordu quruculuğu olduğunu deyib. Onun sözlərinə görə, iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti ilk ordusunu yaradıb və bu, milli hərbi birləşmədə, milli dövlətçiliyin müdafiəsində, sərhədlərin qorunmasında və yeni qurulmuş respublikanın təhlükəsizliyinin təmin edilməsində çox vacib rol oynayıb. Hərbi attaşe əlavə edib ki, müstəqilliyini bərpa etdikdən sonra iqtisadi çətinliklə üzləşən Azərbaycan həm də hərbi təcavüzə məruz qalıb. Buna baxmayaraq, Azərbaycan bu sınaqdan ləyaqətlə keçib və respublikanın suverenliyini, ərazi bütövlüyünü bərpa etməyə qadir güclü Silahlı Qüvvələrini formalaşdırıb.

R.Gözəlovun sözlərinə görə, bu gün Azərbaycan Ordusu beynəlxalq sülhə və təhlükəsizliyə töhfə verir.

ABŞ Dövlət katibinin köməkçisinin müavini Coşua Hak 32 il ərzində iki ölkə arasında tərəfdaşlıq əlaqələri qurulduğunu və bu tərəfdaşlığın dostluğa, ortaq maraqlara və qarşılıqlı hörmətə əsaslandığını deyib. O bildirib ki, Azərbaycanla ABŞ bu illər ərzində terrorla, zoraki ekstremizmlə mübarizə sahəsində birlikdə hərəkət edib.

Coşua Hak, həmçinin enerji və qaz layihələrində, təhsil, "yaşıl iqtisadiyyat"a keçid sahələrində əməkdaşlığa toxunub. ABŞ rəsmisinin sözlərinə görə, Dövlət katibi Antoni Blin-




ken bu əlaqələri qurmaq və inkişaf etdirmək, həmçinin Ermənistanla Azərbaycan arasında ədalətli, davamlı sülhə nail olmaq səylərinə şəxsən xüsusi diqqət yetirir. O, ABŞ-ın Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə dəstəyini bir daha təsdiqləyib.

Oklahoma Milli Qvardiyasının Briqada generalı Kolbi Vayet 22 il əvvəl Azərbaycanla Oklahoma Milli Qvardiyası arasında tərəfdaşlıq proqramı çərçivəsində əməkdaşlıq əlaqələrinin qurulduğunu qeyd edib. O bildirib ki, təmsil etdiyi ştat hər iki tərəf üçün fayda kəsb edən əlaqələrə sadiqdir. Amerikalı general tərəflərin sülhü və stabilliyi gücləndirmək naminə birgə səy göstərdiyini diqqətə çatdırıb.

Çıxışlardan sonra ABŞ-ın Vaşinqton şəhərinin meri Muriel Bauzer tərəfindən 28 May - Azərbaycanın Müstəqillik Günü münasibətilə imzalanmış bəyannamə oxunub.

# Silah və texnikanın yay mövsümündə istismar rejiminə keçidi davam etdirilir

Plana uyğun olaraq, Azərbaycan Ordusunun bütün qoşun növləri, hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın yay mövsümünə keçirilməsi üzrə kompleks tədbirlər keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində yay mövsümündə silah və texnikanın fasiləsiz, dayanıqlı istismarını təmin etmək



məqsədilə iqlim şəraitinin xüsusiyyətləri də nəzərə alınmaqla yanacaq-sürtkü materialları dəyişdirilir, elektrik sistemlərinin vəziyyəti yoxlanılır, eləcə də onlara planlı şəkildə mövsümi qulluq göstərilir.

Bundan başqa, şəxsi heyətə texnikanın mövsümə uyğun istismarı qaydaları öyrədilir, təhlükəsizlik tədbirləri üzrə tələblər çatdırılır.

# Xəbərlər: hadisələr, faktlar

## NATO-nun dörd aylıq genişmiqyaslı hərbi təlimi yekunlaşıb



NATO-nun son illər ərzində keçirdiyi ən böyük hərbi təlim - "Steadfast Defender" manevrləri başa çatıb.

Təxminən 90 min əsgərin iştirakı ilə dörd ay davam edən miqyaslı manevrlərinin məqsədi Rusiyanın alyans ərazisinə mümkün helikopter hücumunun qarşısını almağı təcrübədən keçirmək olub. Təlimlərdə NATO qoşunlarının şərq cinahı boyunca Skandinaviyadan Rumıniyaya köçürülməsi üzərində çalışılıb.

Almaniya Silahlı Qüvvələri hərbi təlimlərdə təxminən 12 min hərbçi ilə təmsil olunub. "Bundesver" hərbi bölmələrin dislokasiya məntəqələrindən mümkün əməliyyat sahələrinə, o cümlədən Litvaya köçürülməsini sınaqdan keçirib.

Qeyd edək ki, "Steadfast Defender" təlimləri "Soyuq Müharibə" dövründən sonra NATO-nun ən böyük manevrləridir.

## Rumıniyada NATO-nun “Dacian Strike 24” hərbi təlimi başlayıb



Mayın 24-dən 28-dək Rumıniyanın Qalatsi bölgəsində "Dacian Strike 24" (DAST24) hərbi təlimi keçirilib.

Bu barədə Rumıniya Müdafiə Nazirliyinin mətbuat xidməti məlumat yayıb.

Təlimdə Rumıniya və digər NATO ölkələrindən təxminən 500 hərbçi iştirak edib.

ABŞ, Fransa, Rumıniya Hərbi Hava Qüvvələri və Böyük Britaniya Kral Hərbi Hava Qüvvələri "Eurofighter Typhoon" təyyarələri ilə manevrlər edib.

Qeyd edək ki, DAST24 birgə komandanlıq təlimi Rumıniya ilə yanaşı Bolqarıstanda da keçirilib.

## ABŞ-da ukraynalı pilotların ilk qrupu F-16-nı idarə etmək üçün təlim keçib



Ukraynalı pilotların birinci qrupu F-16 qırıcılarının döyüş istifadəsi üzrə ABŞ-da təlim keçib.

Bu barədə "Politico" qəzeti təlimin keçirildiyi Arizonadakı aviabazanın nümayəndəsinə istinadla məlumat yayıb.

Qəzet hərbçilərin sayı və təlimin başa çatma tarixini açıqlamayıb.

Nəşrin mənbələrinin məlumatına görə, pilotlar hazırda əlavə təlim keçmək üçün Avropaya yollanırlar. Ukrayna Belçika, Danimarka, Niderland və Norveçdən 60-dan çox F-16 qırıcısı almalıdır.

## Şimali Koreya daha bir hərbi kəşfiyyat peykini buraxmağa hazırlaşır



Şimali Koreya Yaponiyanı mayın 27-dən iyunun 3-dək olan müddətdə hərbi kəşfiyyat peykini orbitə çıxaracağı barədə məlumatlandırıb.

Bu barədə Yaponiyanın sahil mühafizə xidməti açıqlama yayıb. Peyki orbitə qaldıracaq raketin qalıqlarının düşmək ehtimalı olan nöqtələr Yaponiyanın dənizdəki məxsusi iqtisadi zonasından kənardadır. Səlahiyyətli qurumlar gəmilərə bu barədə məlumat verib.

Hazırda Yaponiya hökumətinin xüsusi qrupu məlumatların təhlili ilə məşğuldur. Baş nazir Fumio Kişida müxtəlif qurumlara hər bir vəziyyətə hazır olmağı tapşırıb.

Qeyd edək ki, KXDR ötən il noyabrın 21-də "Çholima-1" daşıyıcı raketi vasitəsilə "Malligen-1" kəşfiyyat peykini uğurla orbitə çıxarıb. Pxenyan kəşfiyyat peykinin Ağ Evin, Pentaqonun və ABŞ-ın hərbi dəniz qüvvələrinin bazasının, habelə Cənubi Koreya ərazisində mühüm obyektlərin fotoşəkillərini çəkdiyini açıqlayıb.

**AZƏRTAC-ın materialları əsasında**

*Yeni nəşrlər*

# “Dərbəndin müdafiə-istehkam qurğuları (qədim dövrdən XX əsrin əvvəllərinə qədər)” kitabı çapdan çıxıb




Milli Müdafiə Universitetində "Dərbəndin müdafiə-istehkam qurğuları (qədim dövrdən XX əsrin əvvəllərinə qədər)" kitabı işıq üzü görüb. Geniş oxucu üçün nəzərdə tutulan əsər müəllifi Milli Müdafiə Universiteti Hərbi Elmi-Tədqiqat İnstitutunun professoru, "Dərbənd" Xeyriyyə İctimai Birliyinin sədri, ehtiyatda olan 1-ci dərəcəli kapitan, tarix elmləri doktoru, professor Nurulla Əliyevdir.

AZƏRTAC xəbər verir ki, kitab Milli Müdafiə Universitetinin Hərbi Elmi-Tədqiqat İnstitutunda hazırlanıb, Dərbənddə hərbi istehkamlar və müxtəlif təyinatlı müdafiə qurğularının inşası tarixinə həsr olunub.

Nəşrdə Dərbənd ərazisində qədim dövrdə və orta əsrlərdə baş vermiş tarixi hərbi-siyasi hadisələr və müharibələrdən bəhs olunur. Həmçinin Xəzər dənizinin qərb sahilləri uğrunda apardıqları qanlı mübarizədə Dərbənd keçidinin mühüm hərbi-strateji əhəmiyyəti əksini tapıb. Yadellilərin hücumlarından qorunmaq və müdafiə olunmaq məqsədilə həmin ərazilərdə müxtəlif təyinatlı müdafiə-istehkam qurğularının qədim dövrdə yaranması prosesi kitabda tədqiq olunur və orta əsrlərdə inkişafı məsələləri işıqlandırılır.

Hazırda Azərbaycan tarixşünaslığında Dərbənd Şimali Azərbaycanın ən qədim şəhərlərindən biri və Şərqin qədim memarlıq abidəsi kimi öyrənilir. Təqdim edilən nəşr respublikanın ali humanitar və xüsusi təyinatlı tədris müəssisələrinin adyunkt və dissertantları, professor-müəllim heyəti, tələbələri və kursantları, eləcə də geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

*Maraq dünyamız*

# “Qanlı şəlalə”



Antarktidanın Şərqində, Teylor Vadisində inanılmaz təbiət fenomeninə rast gəlmək olar. Cənub qütbündə yerləşən Antraktidanın "Qanlı Şəlalə"si görənləri heyrətə gətirir. Qan-qırmızı dəmir oksidli axıntı Teylor buzlağından çıxaraq Mak-Medro dərəsinə axır. Qırmızı su mənbəyi 1911-ci ildə avstraliyalı Tomas Teylor tərəfindən kəşf edilib. İlk əvvəllər suyun qırmızı olması Qırmızı yosunla əlaqələndirilsə də, sonradan səbəbin paslanmış dəmir olması müəyyən edilib. Göldən axan su qrunt tərkibində olan dəmirin oksidləşməsi nəticəsində əmələ gəlir.

Dəmirlə zəngin olan duzlu su kiçik çatdan çıxır. Şəlalənin mənbəyi 400 metr dərinlikdə yerləşən buzaltı göldür. Bu göl dağ arası dərələrin dəniz suyu ilə dolması nəticəsində əmələ gəlir. Bu göl təxmini olaraq 4-1,5 milyon il öncə buz qatının altında qalıb. Göl suyunun duzluluğu okean suyunun duzluluğunu 10 dəfə üstələyir. Bu səbəbdən hətta -10 °C temperaturda belə göl donmur.

Hal-hazırda Qan şəlaləsi altında olan göl normal dəniz suyundan 3 dəfə artıq duzludur və donması qeyri-mümkündür. Materikdən ayrılması ilə bərabər atmosferlə əlaqəsi kəsilən göl hətta gün işığı da ala bilmir və oksigendən məhrumdur. Dəmirlə zəngin olduğu üçün açıqlıqdan axan su, oksigenlə təmas etdiyində paslanır və keçdiyi ərazini qırmızı rəngə boyayır. Qırmızı rənglə axan şəlalə Qan Şəlaləsi olaraq adlandırılıb. Şəlalənin olduğu yerə yalnız helikopter və ya bölgəni ziyarət edən xüsusi gəmilərlə getmək mümkündür.

**"Azərbaycan Ordusu"**

# Krossvord, skanvord, çaynvord, kriptoqram



**Soldan sağa:**

1. Türkdilli xalq
5. Şikəst
6. Amerika qitəsində ada dövləti
7. Dördbucaqlı
10. Meyvə
11. Dəvəkimilər fəsiləsinə aid heyvan
14. İran və Cənubi Qafqazda işlədilmiş gümüş sikkə
16. İbadət, yalvarış
17. Musiqi notu
20. Kişi adı
23. Günəş Allahı
24. Ümumi patogenezə malik simptomların məcmusu
27. Yunan əlifbasında hərf
28. Xəritə, qlobus
29. Qadın baş örtüyü

**Yuxarıdan aşağı:**

1. Milli Məclisin iclasında qəbul edilən qərar
2. Qərbi Avropada dağ sistemi
3. Şahmat fiquru
4. Valideyn
8. Əlaqə, telefon
9. Azərbaycan telekanalı
12. Cəzirə
13. Bakı şəhərindəki keçmiş Oktyabr rayonunun indiki adı
19. İdman meydançası
20. Təltif, nişan
21. Həqiqi
23. İtaliyanın paytaxtı
25. Musiqi notu
15. Zərdüştlüyün kitabı

**Sağdan sola:**

12. Məqsəd
18. Bina, mənzil
22. Sübh, səhər
26. Bağışlama

# İdman

## Azərbaycanın üç idmançısı qrappling üzrə Avropa çempionatında medal qazanıb



Azərbaycanın üç idmançısı Bakıda keçirilən qrappling üzrə U-17, U-20 və böyüklər arasında Avropa çempionatında medal qazanıb.

Eldar Məmmədov (130 kiloqram) gümüş, Vahid Ələkbərovla (58 kiloqram) Vasif Səfərbəyov (100 kiloqram) isə bürünc mükafata yiyələniblər.

## Azərbaycan “Paris-2024” Yay Olimpiya Oyunlarına növbəti lisenziyanı qazanıb



Azərbaycan qılıncoynadanı Anna Başta "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya qazanıb.

Beynəlxalq Qılıncoynatma Federasiyası Azərbaycana sablya növü üzrə qadınların şəxsi yarışında Olimpiadaya iştirak hüququ verən universal lisenziya göndərib. Lisenziya Olimpiya Oyunlarına vəsiqə qazanmayan qadın sablyaçılar arasında yüksək reytinqə malik Anna Baştaya verilib.

Daha öncə Yelena Jemayeva, Səbinə Kərimova və Anna Başta 4 illiyin zirvə yarışında qadın sablyaçıların şəxsi yarışında ölkəmizi təmsil edib.

Qeyd edək ki, bununla da Azərbaycanın "Paris-2024"ə qazandığı lisenziyaların sayı 27-yə çatıb.

## Azərbaycanın gənc güləşçiləri Gürcüstandan 7 medalla qayıdıblar



Azərbaycanın 20 yaşadək sərbəst güləşçiləri Gürcüstanın Qori şəhərində keçirilmiş "Şxireli Kuboku"nda 7 medal qazanıblar.

Vasif Bağırov (57 kiloqram), Musa Verdiyev (65 kiloqram) və Ramik Heybətov (70 kiloqram) bütün rəqiblərinə qalib gələrək çempion olublar. Camal Abbasov (61 kiloqram) ikinci, Əhməd Əhmədli (74 kiloqram), Emin Qocayev (79 kiloqram) və Sadiq Mustafazadə (86 kiloqram) isə üçüncü yeri tutublar.

Qeyd edək ki, turnirdə Gürcüstan, Azərbaycan, ABŞ, Qazaxıstan və İran komandaları iştirak ediblər. Azərbaycanı ənənəvi yarışda 7 güləşçi təmsil edib və onların hər biri fəxri kürsüyə qalxıb.

## Azərbaycan sumoçuları Avropa çempionatını 11 medalla başa vurublar



Azərbaycanın sumo üzrə milli komandaları Yunanıstanın Lutraki şəhərində keçirilmiş Avropa çempionatında uğurla çıxış ediblər.

21 yaşlılar arasında Abdullah Şərif (85 kq) qızıl, Cavidan Nəhmətov (77 kq) və Fərid Əhmədov (92 kq) isə bürünc medala sahib olublar.

U-23 yaş kateqoriyası üzrə Abdullah Şərif (85 kq) gümüş, Xasay Yusif (115 kq və mütləq çəki) 2 bürünc medal əldə edib.

Digər idmançılardan Cavidan Nəhmətov (77 kq) və Məhəmməd Əliyev (70 kq) bürünc medala layiq görülüblər.

Böyüklər arasında Çingiz Səmədov (100 kq) gümüş, Abdullah Şərif (85 kq) və Rəsul Məmmədzadə (77 kq) bürünc medal qazanıblar. Bu nəticə ilə böyüklərdən ibarət yığma komanda hesabında üçüncü olub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktorun müavini** mayor Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 284
Nüsxə 4650